Yeni Azərbaycan.- 2025.- 17 oktyabr, №188.- S.8.



# İftixar Piriyev "Çingiz Aytmatov" medalı ilə təltif edilib

Görkəmli teatr sənəti xadimi, Azərbaycanın Əməkdar mədəniyyət xadimi, şair, dramaturq, aktyor, rejissor, təşkilatçı, Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyev nüfuzlu beynəlxalq mükafata layiq görülüb.

"Beynəlxalq İssık-Kul Forumu"nun vitse-prezidenti Dinara Cumabayevanın AZƏRTAC-a verdiyi məlumata görə, "Çingiz Aytmatov adına Beynəlxalq İssık-Kul Forumu" Rəyasət Heyətinin qərarı ilə incəsənət vasitəsilə xalqlar arasında sülhün və dostluğun möhkəmləndirilməsində müstəsna xidmətlərinə, türkdilli xalqların ortaq mədəni irsinin təbliğinə, xüsusilə Azərbaycan-Qırğızıstan ədəbi və teatr əlaqələrinin inkişafına verdiyi mühüm töhfəyə görə İftixar Piriyev "Çingiz Aytmatov" medalı ilə təltif edilib.

İftixar Piriyev təkcə istedadlı rejissor və aktyor kimi deyil, həm də fəlsəfə, psixologiya və səhnə ifadəsini özündə birləşdirən "qeyri-səlis məntiq" sisteminə əsaslanan orijinal konsepsiyasını səhnə sənətinə tətbiq edən teatr təfəkkürünün novatoru kimi tanınır.

Forumun təşkilatçıları onun xidmətlərini qiymətləndirərək vurğulayıblar ki, Piriyev dahi yazıçı Çingiz Aytmatovun ideyalarının daşıyıcısı kimi öz missiyasını uğurla yerinə yetirir, onun humanist irsini və yüksək mənəvi dəyərlərini teatr, poeziya, elmi-yaradıcılığı ilə fəal şəkildə təbliğ edir.

İftixar Piriyev "Beynəlxalq İssık-Kul Forumu" çərçivəsində baş tutacaq fəxri "Çingiz Aytmatov" medalının təqdimetmə mərasimində iştirak etmək üçün Bişkekə dəvət olunub.

Bu mükafat onun çoxillik səmərəli əməyinə verilən qiymət olub və türkdilli xalqların mədəni birliyinin rəmzinə çevrilib.